# ŞƏRQİ ZƏNGƏZUR VƏ QARABAĞ BÖLGƏLƏRİNDƏ YAYILAN TƏSƏRRÜFAT ƏHƏMİYYƏTLİ YABANI XAŞA (*ONOBRYCHIS* MILL.) CİNSİ NÖVLƏRİ

**Xarıbül Əzizxanlı**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Genetik Ehtiyatlar İnstitutu,*
*xaribul@gmail.com*

Mədəni bitkilərin yabanı əcdadları üzrə yüksək keyfiyyət göstəricilərinə malik xaşanın dünyada 160, Azərbaycanda 33 növü vardır. Xaşa bütün dünyada, xüsusilə quraq və yarımsəhra bölgələrdə yayılma və ekosistemlərdə müxtəlif funksiyaları yerinə yetirmə qabiliyyətinə malik mühüm yem bitkilərindən biridir.

Ədəbiyyat (Əsgərov, 2016) və herbari (BAK) məlumatlarına əsasən, Şərqi Zəngəzur və Qarabağ bölgələrində 13 yabanı xaşa növünə rast gəlinir: *O.caput-galli, O.cornuta, O.biebersteinii, O.cyri, O.bungei, O.atropatana, O.transcaucasica, O.radiata, O.vaginalis, O.schuschajensis, O.komarovii, O.michauxii, O.hohenackeriana.*

*O.caput-galli* və *O.komarovii* növlərindən başqa bütün növlər çoxillikdir. Yem əhəmiyyətli növlərə *O.biebersteinii, O.cyri, O.michauxii, O.bungei, O.hohenackeriana, O.radiata, O.vaginalis* aiddir. Azərbaycanda bitən yabanı xaşa növlərindən təkcə *O.transcaucasica* növü kulturaya keçirilmişdir.

Xaşa həm də yaxşı balverən bitkidir. Xaşanın hər hektarı 130-150 kq bal verir. Onun balı keyfiyyətli, ətirli və dadlı olur. Qarabağ bölgəsində arıçılıq qədimdən inkişaf etmiş sahələrdən biri olub. Torpaqlarımız işğaldan azad olunduqdan sonra bu ərazilərdə arıçılıq yenidən inkişaf etməyə başlamışdır. Təsərrüfat üçün yalnız becərilən bitkilər əsasında arıçılığın inkişafı və məhsuldarlığı iqtisadi baxımdan faydalı deyildir. Belə halda yabanı bitkilərin təsərrüfat əhəmiyyəti nəzərə alınmalıdır. Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan və s. bölgələr arıçılıq üçün ideal şəraiti olan ərazilərdir. Qarabağın aran hissəsində, Arazqırağı ərazilərdə də arıçılığın inkişafı üçün münbit şərait mövcuddur. Qarabağda həm dağ, həm də aran arıçılığını inkişaf etdirmək mümkündür. Balverən xaşa cinsi növlərinə *O.caput-galli, O.biebersteinii, O.bungei, O.cyri, O.transcaucasica, O.radiata, O.vaginalis* daxildir.

Yüksəkməhsuldar, keyfiyyətli ot verən, ətraf mühitin təzyiqlərinə (xəstəliklərə, zərərvericilərə, şaxtaya, quraqlığa, şoranlığa) davamlı, yeni əkinçilik texnikasına uyğun xaşa sortlarının yetişdirilməsi üçün təbii bitki örtüyündə olan yabanı növlərdən faydalanmaq mümkündür.